AZƏRBAYCAN www.azerbaijan-news.az

# "Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, N 2, maddə 118) aşağıdakı dəyişikliklər edilsin:

1. Adından, preambuladan, 1-ci, 2-ci və 3-cü (hər iki halda) hissələrdən "və Sənaye" sözləri çıxarılsın.

2. 3-cü hissədə "172" rəqəmləri "199" rəqəmləri ilə əvəz edilsin.

3. Həmin fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi haqqında Əsasnamə" üzrə:

3.1. adından və 1.1-ci bənddən "və Sənaye" sözləri çıxarılsın;

3.2. 1.1-ci bəndə "daxili ticarət" sözlərindən əvvəl "dövlət vəsaitləri hesabına malların (işlərin və xidmətlərin) satın alınması," sözləri əlavə edilsin;

3.3. 2.0.3-cü və 3.0.8-ci yarımbəndlərdən ", dövlət satınalmaları" sözləri çıxarılsın;

3.4. aşağıdakı məzmunda 2.0.8-1-ci və 3.0.46-1-ci yarımbəndlər əlavə edilsin:

"2.0.8-1. dövlət vəsaitləri hesabına malların (işlərin və xidmətlərin) satın alınması sahəsində dövlət siyasətini aidiyyəti dövlət orqanları ilə birlikdə hazırlayır və həyata keçirilməsini təmin edir;";

"3.0.46-1. dövlət vəsaitləri hesabına malların (işlərin və xidmətlərin) satın alınması sahəsində dövlət siyasətini aidiyyəti dövlət orqanları ilə birlikdə hazırlamaq, bu sahədə dövlət nəzarətinin həyata keçirilməsini nazirliyin strukturuna daxil olan qurum vasitəsilə təmin etmək;";

3.5. 5.3-cü bəndin birinci cümləsindən "və sənaye" sözləri çıxarılsın;

3.6. 5.5.5-ci yarımbəndə "digər qurumların" sözlərindən sonra "(strukturu Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən qurumlar istisna olmaqla)" sözləri əlavə edilsin.

4. Həmin fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyinin strukturu"nun adından, 1-ci, 2-ci və 4-cü hissələrindən "və Sənaye" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 may 2016-cı il*